**Dövlət Statistika Komitəsi nümayəndəsinin Almatı şəhərində təşkil olunmuş "Məlumatların idarə olunmasında hazırlığın təmin olunması məqsədi ilə fövqəladə hallarda cavab tədbirlərinin hazırlanmasına dair" regional tədbirdə iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndəsi Statistika işlərinin əlaqələndirilməsi şöbəsi müdrinin müavini Qasım Əliyev Birləşmiş Millətlər Təşkilatının Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsinin təşkilatçılığı ilə 2012-ci ilin 4-5 iyun tarixlərində Qazaxıstan Respublikasının Almatı şəhərində "Məlumatların idarə olunmasında hazırlığın təmin olunması məqsədi ilə fövqəladə hallarda cavab tədbirlərinin hazırlanmasına dair" regional tədbirdə iştirak etmişdir. Regional tədbirdə Azərbaycan Respublikası ilə yanaşı Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Ermənistan, Gürcüstan, Qırğızıstan respublikalarının və BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə Regional İdarəsinin nümayəndələri iştirak etmişlər.



Təlim tədbiri bütünlüklə fövqəladə hallarda cavab tədbirlərinin hazırlanması, mərkəzi qərargahın formalaşdırılması, işçi qruplarının yaradılması, yerli və beynəlxalq humanitar yardımların düzgün və sistemli bölüşdürülməsi, fövqəladə halın baş verdiyi ərazidə əhalinin sayı və infrastrukturuna dair məlumatların toplanması və təhlili, fövqəladə hallara dair praktiki məsələlərin həlli kimi məsələlərə həsr olunmuşdur.

İki günlük tədbirdə bütün təqdimatlar və mühazirələr BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə Regional İdarəsinin mütəxəssisləri tərəfindən təqdim edilmişdir. Qeyd edilmişdir ki, humanitar əməliyyatların səmərəliliyi bir çox hallarda məlumatların və informasiyanın mövcud olmasından asılı olur. Lakin fövqəladə hadisələrdə cavab tədbirlərinin həyata keçirilməsi zamanı məlumatların toplanmasında, istifadəsində, təhlilində və yayılmasında nöqsanlara və ya gecikmələrə yol verilərsə, bu son nəticədə humanitar əməliyyatların fəaliyyətinə təsir göstərər, bütünlükdə cavab tədbirlərinin səmərəliliyini aşağı salar, milli və beynəlxalq tərəfdaşların əməkdaşlığını məhdudlaşdıra bilər. BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə Regional İdarəsinin fəaliyyətinin əsas məqsədi fövqəladə hadisələrə hazırlığın təmin olunması məqsədilə, informasiyanın idarə olunmasının rolu barədə bilikləri artırmaqdan ibarətdir. Bu məqsədlə BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi region ölkələri olan Qafqaz və Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda işləyir.

Tədbirin məqsədləri barədə danışan mühazirəçilər qeyd etmişlər ki, ilk əvvəl informasiyanın idarə olunması anlayışının müəyyən olunması tələb olunur. Daha sonra fövqəladə hadisə zamanı humanitar cavab tədbirlərinin hazırlanmasında informasiyanın idarə olunmasının məqsəd və vəzifələri barədə danışmaq lazımdır. Bu hissəyə həm də humanitar cavab tədbirlərinin hazırlanmasına daxil olan xidmət növləri də aid edilir. İnformasiya özündə müxtəlif formalarda olan ümumi məlumatları birləşdirir. İdarə olunma isə qarşıya qoyulmuş məqsədə səmərəli çatılması üçün əməliyyatın müəyyən mərhələlərində müxtəlif resursların əlaqələndirilməsidir.

Tədbir zamanı müxtəlif ölkələrdə mövcud olan P-kodları, onların strukturu, kod mənaları barədə də geniş məlumat verilmişdir.

Daha sonra fövqəladə hadisə zamanı yaradılan işçi qrupları və onlara daxil olan dövlət orqanları, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin vəzifələri barədə danışılmışdır. Coğrafi informasiya sistemi, fövqəladə hadisədən əvvəl və sonra çəkilən xəritələr və bu sistemin təşkilindən danışılmış və müzakirələr aparılmışdır.

Fövqəladə hadisə barədə ilkin sürətli qiymətləndirməni müəyyən etməkdə kömək edən MİRA adlı metodologiya barədə təqdimat oldu. Əslində MİRA fövqəladə hadisədən dərhal sonra formalaşan işçi qrupunun fəaliyyətinin nəticəsidir. MİRA zərərçəkmiş əhali haqqında fundamental informasiyanın təmin edilməsi üçün formalaşdırılmışdır. MİRA-nın əlaqələndiricisi kimi humanitar yardım əlaqələndiricisi adından BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi çıxış edir.

Tədbirdə iştirak edən Azərbaycan nümayəndə heyəti praktiki məşğələlərdə iştirak edərək, müzakirələrdə və tapşırıqların həll edilməsində fəal iştirak etmişlər.